

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır  4 iyun 2022-ci il №42 (2653) https://mod.gov.az  Qiymətі 30 qəpik


## Azərbaycan Respublikası vətəndaşlarının 2022-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə qərara alıram:

1. 2004-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1987-2003-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2022-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2022-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 iyun 2022-ci il

*Reportaj*

# Tarixi torpaqlarımızda mühəndis təminatı uğurla yerinə yetirilir



Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında şanlı ordumuzun qazandığı qələbə ilə işğaldan azad olunan tarixi ərazilərimizdə mühəndis tapşırıqları uğurla yerinə yetirilir. Dövlət rəhbərliyi tərəfindən qarşıya qoyulan tapşırıqlara əsasən, düşməndən təmizlənmiş doğma yurdumuz minalardan da təmizlənir. Təhlükəsizliyin və firavanlığın təmin edilməsi, soydaşlarımızın öz doğma yurdlarına qayıtması, o cümlədən nəqliyyat vasitələrinin operativliyinin təşkil edilməsi, yenidənqurma işlərinin sürətləndirilməsi məqsədilə mühəndis təminatı müasir tələblər çərçivəsində təşkil edilir. Düşmənin uzun illər ərzində torpaqlarımızı intensiv şəkildə minalaması mühəndis qoşunlarının işini çətinləşdirsə də, qısa müddət ərzində əldə olunan yüksək nəticələr tarixi yurd yerimizdə həyatın yenidən bərpa olunacağı günün uzaqda olmadığının carçısıdır.

İşğaldan azad edilmiş Ağdam torpağındayıq. İstehkam bölməsinin şəxsi heyəti ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi tapşırığını yerinə yetirir. Silahlanmamıza yeni daxil edilən müasir texnika və avadanlıqlardan istifadə edən istehkamçılarımız tapşırıqları dəqiq və qısa vaxt ərzində icra edirlər. İlk olaraq zabit Şakir Zeynalovla tanış oluruq. 2005-ci ildən ömrünü hərb peşəsinə bağlayan zabit İkinci Qarabağ müharibəsində göstərdiyi xidmətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Şuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif olunan Ş.Zeynalovdan işğaldan azad olunmuş ərazilərdə aparılan mühəndis təminatlı fəaliyyətlər barədə ətraflı məlumat alırıq.

**(Ardı 2-ci səhifədə)**

# Mühəndis qoşunlarının fəaliyyəti haqqında məlumat



*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, azad edilmiş ərazilərimizdə Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində may ayı ərzində 2300 hektardan çox ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib.*

İşğaldan azad edilmiş ərazilərdə bu günədək mühəndis-istehkam bölmələri tərəfindən 18600 hektardan artıq ərazi mina və partlamamış döyüş sursatlarından təmizlənib. Ümumilikdə 6000 ədəddən artıq piyada əleyhinə, 2100 ədəddən artıq tank əleyhinə və 9400 ədəddən artıq partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib.

Mina təmizlənmə işlərində əsas səylər azad olunan ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.

Azad edilmiş ərazilərimizdə mühəndis təminatı üzrə zəruri tədbirlər davam etdirilir.





# Tarixi torpaqlarımızda mühəndis təminatı uğurla yerinə yetirilir

(Əvvəli 1-ci səhifədə)

"Bu gün tarixi torpaqlarımızda mühəndis-istehkam bölmələrinin üzərinə məsuliyyətli və bir o qədər də müqəddəs vəzifə düşür. Düşmən bu yerlərdə saysız-hesabsız mina basdırıb. Bölməmiz ixtisasının həm nəzəri, həm də praktiki biliklərini dərindən mənimsəmiş, dərslərdə və təlimlərdə möhkəmlənmiş təcrübəli hərbi qulluqçulardan ibarətdir. Təbiidir ki, qarşıya qoyulan mühəndis təminatı tapşırıqlarını qüsursuz yerinə yetirmək üçün hazırlıq və peşəkarlıq əsas şərtlərdir. Səbir və dözüm də mühəndis istehkamçının sahib olduğu vacib keyfiyyətlərdəndir. Belə ki, ucsuz-bucaqsız Vətən torpaqlarında gündəlik mühəndis fəaliyyətinin səmərəliliyini təşkil etmək insandan polad iradə, tükənməz səbir tələb edir. Bölməmizin əsas fəaliyyətləri nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyini təmin etmək, əkinə yararlı sahələri minalardan təmizləmək, infrastrukturun yenidən bərpa edilməsində qarşıya qoyulan mühəndis tapşırıqlarını yerinə yetirməkdir. Tərəfimizdən aşkar olunan piyada və tank əleyhinə minalar və partlamamış döyüş sursatları aşkar edildikdən sonra təhlükəsiz ərazidə məhv edilir. Əməliyyatlar gedən ərazilərdə sursat qalıqları və partlamamış sursatların da təmizlənməsi işləri aparılır. Silahlanmamızda olan müasir avadanlıq və texnikalardan istifadə edərək qarşıya qoyulan tapşırıqları ləngimədən yerinə yetiririk. İşimizin risk dərəcəsi nəzərə alınaraq, təhlükəsizlik qaydaları ön plana çıxır. Bizim qarşımızdakı düşmənin xisləti hər kəsə məlum olduğundan sürpriz partlayıcıların aşkar edilməsi və zərərsizləşdirilməsi məsələsinə xüsusi diqqət ayrılır. Bundan savayı düşmən geri çəkilərkən körpüləri partlatmış, alternativ yolları və keçidləri, dar cığırları belə minalamışdı. Belə hallarda təcrübə ön plana çıxır ki, Azərbaycan Ordusunun mühəndis qoşunları İkinci Qarabağ müharibəsində bu peşəkarlığı nümayiş etdirdi. 44 günlük haqq savaşında bölməmizlə birlikdə Xocavənd, Şuşa istiqamətində mühəndis təminatı tapşırıqlarını yerinə yetirmişik. Bildiyimiz kimi, mühəndis qoşunlarının müharibə şəraitində (istər hücum, istərsə də müdafiə qismində) və sülh vəziyyətində fəaliyyətlər tam da olmasa, fərqlənir. Belə ki, hücum edən qoşunların (piyada və nəqliyyatla bölmələrin) fəaliyyətini operativ və maneəsiz təşkil etmək, fortifikasiya qurğularının keçilməsini təmin etmək, habelə, hərəkətin təhlükəsizliyi üçün yolları müxtəlif təyinatlı minalardan təmizləmək və bərpa etmək qarşıya qoyulan tapşırıqlardan idi. Çətin əməliyyat şəraitində minaların zərərsizləşdirilməsi, keçidlərin açılması insandan yüksək bilik və möhkəm səbir tələb edir. Bu halda verilən komandalar uğurla və zamanında icra edilir. Ərazinin relyefi və saatı, şəxsi heyətin yüksək döyüş və mənəvi-psixoloji hazırlığı nəzərə alınmalı faktorlardır ki, tapşırığın icrasında mühüm rol oynayır. Hazırda işğaldan azad edmiş Ağdam rayonunda mühəndis təminatını təşkil edirik. Müqəddəs amalın və məsuliyyətli vəzifənin fərqində olan şəxsi heyət görülən işlərin çətinliyini hiss etmir, əksinə, ona olan etimadı layiqincə doğrultmaq üçün əlindən gələni əsirgəmir".



Mühəndis bölməsinin digər zabiti leytenant Məhəmməd Məmmədli ilə söhbətimiz zamanı öyrənirəm ki, gənc zabit İkinci Qarabağ müharibəsində göstərdiyi xidmətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Suqovuşanın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib. Məhəmməd bildirir ki, Vətən müharibəsi şəxsi heyətin hərbi peşəkarlığının yüksək səviyyədə saxlanılmasının vacib olduğunu sübut etdi. Keçirilən məşğələlər və təşkil olunan təlimlər nəticəsində hərbi qulluqçuların təcrübəsi artır, qarşıya qoyulan tapşırıqlar operativ və uğurla icra edilir. "Belə ki, keçilən dərslərin (hansı səviyyədə) mənimsənilməsini sınaqdan keçirmək məqsədilə normativlər və tapşırıqlar yerinə yetirilir, qiymətləndirmələr aparılır. Çalışırıq ki, komandirlərimizlə birlikdə bölmənin döyüşə hazırolma vərdişlərini artıraq. Mühəndisin döyüşə hazırolması dedikdə nə başa düşülür? Əslində, bu geniş mövzu olsa da, əsas onu demək yerinə düşər ki, mina sahəsində keçidlərin açılması, minatəmizləmə, maneələğvetmə və digər fəaliyyətlər nəzərdə tutulur. Həmçinin bölmənin hərbi qulluqçularının müxtəlif şəraitə (relyef, iqlim və günün saatlarına) uyğunlaşdırılmasına xüsusi diqqət yetirilməlidir. Gördüyünüz kimi, mənfur düşmən ətrafda bir dənə də olsun ağac qoymayıb. İlin isti aylarında fəaliyyətlər (komandanlığın tapşırığına əsasən) günün sərin vaxtlarında yerinə yetirilir.

Ərazinin geniş olması isə bizi qorxutmur. Tabeliyimizdə olan müasir avadanlıqların və şəxsi heyətin yüksək ixtisas hazırlığı ilə bu işin də öhdəsindən ən qısa vaxtda gələcəyik. Hər gün biz daha da irəliləyir və tarixi torpaqlarımızda gündəlik fəaliyyətin təhlükəsizliyini təmin etmək üçün çalışırıq. Hər bir əsgər xidməti məsuliyyətinin fərqindədir. Və bilir ki, onun aşkar etdiyi mina və ya partlamamış döyüş sursatı bir və ya bir neçə insanın həyati təhlükəsinin qarşısını alır. Mühəndis təminatı tapşırıqları yerinə yetirildikdən sonra bura torpaqlarımızın həqiqi sakinləri qayıdacaq, həyat yenidən dirçələcək. O günlər uzaqda deyil. Bölməmizin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İntiqam Əkbərov da bu müqəddəs savaşda canını fəda edərək şəhadətə yüksələnlərin sırasındadır".



Əsgərlər Elvin Nəcəfzadə, Əhməd Şıxaliyev, Rəşad Əliyev, Alcan İbrahimov, Şeymur Məhərrəmov və Fərid Abdullazadənin üzərlərinə düşən mühəndis-istehkam tapşırıqlarını bacarıqla yerinə yetirməsi onların hər birinin öz hərbi peşə vərdişlərinə dərindən yiyələnməsindən xəbər verir. Mühəndis tapşırıqlarının qüsursuz yerinə yetirməyin insandan yüksək hərbi bilik və cəsarət tələb etdiyinin bu oğullar sayəsində bir daha şahidi olduq. Gördüklərimiz bizi bir daha əmin edir ki, həyati təhlükə ilə qarşı-qarşıya olmasına baxmayaraq, Vətənə müqəddəs borcunu layiqincə ödəyən oğullarımız sayəsində o yerlərin həqiqi sakinləri doğma yurdlarına Böyük Qayıdış edəcək və tezliklə tarixi torpaqlarımızda həyat yenidən canlanacaq.

Gənc istehkamçılarla söhbətimizi başa vurduqdan sonra mühəndis təminatının yerinə yetirildiyi digər nöqtələrdə oluruq. Hərbi qulluqçumuzun uzaqdan (distant) idarə etdiyi qardaş Türkiyə Cümhuriyyətinin istehsalı olan MEMATT (Mekanik Mayın Temizleme Teçhizatı) markalı mexaniki minatəmizləmə texnikasının iş görmə fəaliyyəti ilə tanış oluruq. 44 günlük haqq savaşımızı Böyük Qələbə ilə başa vurduqdan sonra mənfur düşmənin tarixi ərazilərimizə yerləşdirdiyi saysız-hesabsız minaların zərərsizləşdirilməsi məqsədi ilə istifadə olunan bu yeni nəsil texnika artıq keçirilən sınaqlarda özünü layiqincə doğruldub. Texnikanı idarə edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Xudaverdi Sadıqovdan MEMATT mühəndis texnikası ilə bağlı məlumat aldıq. "Türk qardaşlarımızın bizlərə keçdiyi hazırlıq kursunda bu modern texnikadan istifadə qaydalarını öyrəndik, onun sirlərinə yiyələndik. Kursu müvəffəqiyyətlə başa vurduqdan sonra yuxarı komandanlıq tərəfindən bizlərə sertifikatlar təqdim edildi. Və bu gün tarixi torpaqlarımızda müasir tələblərə cavab verən texnikanın tətbiqi ilə mühəndis təminatı tapşırıqlarını yerinə yetiririk. Qarşımızdakı texnika distant idarə



olunduğu üçün ölüm riski sıfıra enir ki, bu da çox vacib amildir. MEMATT mühəndis texnikasının üst hissəsində yerləşdirilən kameralar sayəsində işin görüldüyü ərazi qarşımdakı kompüterdə əks olunur. Texnika möhkəm zirehlə təchiz olunduğundan dayanıqlılığı da yüksəkdir. Tapşırıqların yerinə yetirilməsi zamanı operativliyin təmin edilməsi, gündəlik işgörmə əmsalının yüksəlməsi məqsədilə bu texnikanın istifadəsi işimizi yüngülləşdirir".

Növbəti nöqtədə gizir Rəşad Şirinov və təlimçisinin əmrini gözləyən it (Maks) var idi. Rəhimdən mühəndis təminatında xüsusi təlim keçmiş itlərimizin rolunu öyrənirəm. "Kinoloji mərkəzdən qoşunlarımızın tərkibinə verilən itlər, adətən sakit olmaları ilə seçilirlər. Çünki səs-küylü və aqressiv itlər mühəndis bölməsi üçün arzuolunan deyil, adətən qarovul xidmət üçün əlverişli hesab olunur. Maks müəyyən müddət ərzində tapşırıqları və tapşırıqların yerinə yetirilməsində istifadə olunan açar kəlmələri öyrənib. Təbii ki, bir itin təlimatçısına öyrəşməsi də vaxt aparan məsələlərdəndir. Hazırda Maksın məni başa düşməsi üçün bir söz və yaxud bir hərəkət kifayət edir. Bu da vaxt tələb edən mövzudur. Poliqonlarda xüsusi təlim keçdikdən sonra xidməti tapşırıqlarda bizə yardımçı olan "dostlarımız" həyati əhəmiyyətli tapşırıqların da yerinə yetirilməsində əvəzsiz rola malikdir. Mühəndis tapşırıqları çərçivəsində komandanı qəbul edərək irəli atılan Maks hər hansı mina və ya partlamamış hərbi sursat gördükdə oturur və ya uzanır, sanki növbəti komandanı gözləyirmiş kimi siqnalı təlimatçısına (yəni, mənə) verir. Növbəti mərhələdə biz məlumatın dəqiqliyini yoxlamaq üçün həmin fəaliyyəti bir daha təkrarlayırıq. İtlərin qidalanması və sağlamlığı da xüsusi diqqət yetirilən mövzulardan biridir. Çünki həyati əhəmiyyətli məsələlərdə bizə yardımçı olan dostlarımızın qeydinə lazımi səviyyədə qalmalıyıq. Sonda onu qeyd etmək istərdim ki, söhbət əgər insan həyatından gedirsə, tam əminliklə deyə bilərəm ki, bir insan üçün ən sadiq heyvan məhz itdir".

Burada olduğumuz müddət ərzində istehkamçılarımızın fəaliyyəti ilə yaxından tanış oluruq, təminatımızda olan müasir avadanlıq və günün tələbləri səviyyəsində qurulan mühəndis tapşırıqlarının icrası prosesinin şahidi oluruq. Gördüklərimiz bir daha təsdiqləmiş olur ki, tarixi torpaqlarımıza Böyük Qayıdışa, o torpaqlarda firavan həyatın bərpasına az qalıb. Bu fikirlə igid mühəndis-istehkamçılarımızın yanından ayrılırıq. Onlara gələcək xidmətlərində uğurlar və möhkəm can sağlığı arzulayırıq.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Hərbi təhsil sistemində islahat tarixi zərurətin nəticəsidir

***Vətən müharibəsində qazanılan Zəfər ordu quruculuğunda müəyyən islahatları şərtləndirdi. Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə ordumuzda yeni təyinatlı Komando hərbi hissəsi yaradıldı. Sonrakı islahat hərbi təhsil sisteminə şamil edildi.***

***Müsahibimiz professor, general-leytenant Heydər Piriyevdir.***



**- Cənab general-leytenant, ordu quruculuğunda hər yenilik islahat deyil, hər islahat yenilikdir, yeniləşmədir. Bununla bağlı fikirlərinizi bilmək maraqlı olardı.**

- Bu tezisə hərbi düşüncənin tezisi də demək mümkündür. Yeniləşmə daha geniş şəbəkəli anlayışdır və ordu quruculuğuna, ordu quruculuğu ordunun güclənməsinə xidmət edir. Bu anlamda islahatlar ordu quruculuğunun tərkib hissəsi olmaq etibarilə dövlətçiliyin möhkəmləndirilməsi deməkdir. Mahiyyət baxımından ordunun şəxsi heyətinin döyüş, eləcə də mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə yönəldilən islahatlar Azərbaycan Ordusunda kəsilməzliklə, dönməzliklə, elmi əsaslarla aparılır. Azərbaycan Ordusunun dünyanın ən güclü 50 ordusu sırasında olması həm də belə gərəkli və vaxtında aparılan islahatlarla bağlıdır. Bu və ya digər islahat həm ayrılıqda (fərdi), həm də vəhdətdə (kompleks) ordunun şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi ilə nəticələnir. Son illərdə həyata keçirilən islahatlar məhz belə islahatlar kimi tarixləşib. Azərbaycan Ordusunda islahatlar - mahiyyətli strateji yeniləşmələr həmişə tarixi zərurət kimi təzahür edib və ordu quruculuğu prosesinin tərkib hissəsi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ordu quruculuğu prosesi məhz buna görə bu səviyyədə dönməzləşib - güclü, qüdrətli ordumuz var.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev deyib: "Ordu quruculuğu prosesi Azərbaycanda ardıcıllıqla icra edilir. Həm təminat, təchizat, müasir texnikanın alınması, döyüş qabiliyyətinin artırılması, eyni zamanda, bizim uğurlarımız siyasi uğurlarla tamamlanır". Bu fikirlər sonrakı illərdə ordu quruculuğu prosesinin mahiyyətini müəyyənləşdirdi. Müharibə şəraitində Azərbaycanda ordu quruculuğu həmişə dövlət üçün prioritet olub. İndi Vətən müharibəsindən sonra işğalı sonlandıran qalib ordu kimi prioritetdir...

Elmi, hərbi-elmi nəzəriyyələr təsdiqləyir ki, xarakterindən asılı olmayaraq, istənilən müharibədə qazanılan qələbəni şərtləndirən amillərdən ən başlıcası xalqla ordunun yekdilliyi, sərkərdəlik məharəti, ordunun döyüş hazırlığının yüksəldilməsinə yönəldilməklə vaxtında aparılan zəruri islahatlardır. Müharibələr tarixi göstərir ki, dövlət, dövlətçilik üçün, bu baxımdan ordu quruculuğu üçün gərəkli islahatlar müharibədən sonra gerçəkləşdirilir. Belə islahatlar dövlətimizin başçısının zəruri bildiyi sahələri əhatə edir.

**- Vətən müharibəsi Zəfərlə başa çatdı. Bu hərbi tezisə görə Azərbaycanda da ordu quruculuğunu əhatə edən islahatlar aparılacaqdı. Bu barədə nə deyə bilərsiniz?**

- Azərbaycanın ədalətli müharibəyə başlaması tarixi zərurət idi. Danışıqlardan yayınan, regionda mövcud status-kvonu saxlamağa çalışan Ermənistanın silahlı birləşmələri istər işğal etdiyi ərazilərdən, istərsə də dövlət sərhədlərindən müxtəlif səviyyəli təxribatlar törədir, həmlələr, hücumlar edirdi. Azərbaycan Ordusunun hissələri bunların qarşısını qətiyyətlə alırdı. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin döyüş əmri ilə əks-hücum əməliyyatına, ədalətli müharibəyə - Vətən müharibəsinə başlayan ordumuz düşmənin işğal dövründə yaratdığı, təkmilləşdirdiyi, yeniləşdirdiyi çoxpilləli müdafiə sədlərini qısa müddətdə darmadağın etdi. Noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə Vətən müharibəsində Zəfər qazanıldı. Bu Zəfərin Azərbaycanın torpaqlarının işğaldan azad olunmasına görə hərbi əhəmiyyəti, Azərbaycan Ordusunun gücünün, qüdrətinin etiraf edilməsinə görə böyük siyasi əhəmiyyəti oldu. Bu Zəfər həm də ordu quruculuğunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin zəruri bildiyi islahatların aparılmasına zəmin yaratdı. İlk belə islahatla Komando hərbi hissəsi yaradıldı. Sonrakı islahat bilavasitə hərbi təhsili əhatə etdi.

**- Bu islahatın mahiyyəti əvvəlki islahatlardan fərqlidir?**

- Bəli. Bu islahat tarixi islahatdır, obrazlı şəkildə desək, tarixin islahatıdır. Dediyiniz fərq islahatın tətbiq sahəsi ilə bağlıdır. Yəni, bu islahat hərbi təhsil sistemini əhatə etməklə əsaslı dəyişikliklər islahatıdır. Bu islahatın mahiyyətində hərbi təfəkkürün formalaşdırılması niyyəti dayanır və Müdafiə Nazirliyinin strukturlarına daxil olan xüsusi təyinatlı təhsil müəssisələri şəbəkəsinin fəaliyyətinin təkmilləşdirilməsi, koordinasiyası, Türkiyənin və inkişaf etmiş ölkələrin hərbi təhsil sisteminə inteqrasiyası baxımından son dərəcədə gərəklidir. Bu islahat Azərbaycanda hərbi təhsil sisteminin daha dinamik səviyyədə, daha mütərəqqi üsul və vasitələrlə, dünyəvi təcrübələrə əsaslanılmaqla inkişafını təmin edəcək. Bu inkişafın dialektikası hərbi-elmi təfəkkürün formalaşmasını, intellektual səviyyənin genişlənməsini əhatələyəcək. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq Fərmanı ilə yaradılan Milli Müdafiə Universitetinin başlıca vəzifələrindən biri Azərbaycan Ordusunda ali hərbi təhsilin bütün səviyyələri və əlavə təhsil proqramları üzrə ixtisaslı kadrlar hazırlamaqdır.

**- Xüsusi təyinatlı təhsil müəssisələrində hərbçi kadrlar hazırlanırdı, Silahlı Qüvvələrin Hərbi Akademiyasında zabitlər akademik hərbi təhsil alırdı.**

- Belə təhsil sistemi müasir ordu quruculuğunun inkişaf səviyyəsi ilə müqayisədə müasir yanaşma tələb edir. Hərbçi kadr, hərbçi elmi-pedaqoji kadr islahatları mahiyyət baxımından fərqlidir. Bu islahat bu fərqin təhsil sisteminə təsirinin qarşısını alacaq. Zabit kadrları hazırlığının səviyyəsini artırmaq üçün yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması zərurəti hərbi təhsil sisteminin bu formatda təkmilləşməsi ilə nəticələndi. Bu islahat elmi və elmi-pedaqoji kadrların praktik fəaliyyətində elmi yanaşma bacarığını formalaşdıracaq. Ölkənin müdafiə qüdrətinin yüksəldilməsində və ordu quruculuğunun daha gərəkli səviyyədə təkmilləşməsində Milli Müdafiə Universitetinin də xidmətləri olacaq. Belə ki, fəaliyyət nəticəsində əldə edilən elmi nəticələr bilavasitə hərbi təhsilə və ölkənin müdafiə qüdrətinin yüksəldilməsinə yönəldiləcək. Milli Müdafiə Universitetində dövlət orqanlarında işləyən vəzifəli şəxslərə hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsi də nəzərdə tutulur. Bu, dövlətçilik üçün olduqca vacib bir məsələdir və təkcə erudisiyanın genişləndirilməsi niyyəti ilə məhdudlaşmır, onlara dövlətçilik üçün gərəkli olan idarəetmə səriştəsi, bu səriştə üçün gərəkli olan elmi, elmi-təcrübi biliklər də aşılanacaq. Belə hərbi təhsil sisteminin Azərbaycan Respublikasının təhsil və elm haqqında qanunlarına uyğun olaraq, həmçinin Türkiyə Respublikasının, eləcə də inkişaf etmiş digər ölkələrin hərbi təhsil sisteminə uyğun yenidən qurulması deməkdir. Yəni, bu islahatın başlıca mahiyyəti dünyəvi hərbi təhsil sisteminə inteqrasiya deməkdir. Bunlar milli maraqlar, milli-mənəvi dəyərlər sistemi kimi amillər də nəzərə alınmaqla həyata keçiriləcək. Müəyyən mənada Azərbaycanın özünün azərbaycançılıq ideologiyası əsasında formalaşan Milli Müdafiə Universiteti olacaq.

Milli Müdafiə Universitetinin, bu universitet sistemində fəaliyyət göstərəcək Hərbi Elmi-Tədqiqat İnstitutunun, Hərbi İdarəetmə İnstitutunun nizamnamələri hazırlananda bunlar nəzərə alınıb. Universitet də, institutlar da, Təlim-Tədris Mərkəzi də, liseylər də milli-mənəvi dəyərləri hərbçi məsuliyyəti ilə yaşatmaqla fəaliyyət göstərəcək.

**- İslahatlar nəticəsində yaradılan yeni təhsil sisteminə hansı xüsusi təyinatlı təhsil müəssisələri daxildir?**

- Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 mart tarixli Fərmanı ilə "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nda dəyişikliklər edilib. Silahlı Qüvvələrin Hərbi Akademiyası təhsil müəssisəsi kimi ləğv olunub, onun maddi-texniki bazası əsasında iki müstəqil institut yaradılıb: Hərbi Elmi-Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi fəaliyyətini Heydər Əliyev adına Hərbi İnstitut kimi davam etdirəcək. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Cəmşid Naxçıvanski adına Hərbi Lisey və Heydər Əliyev adına Hərbi Lisey də Milli Müdafiə Universitetinin tabeliyinə verilib.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə Milli Müdafiə Universitetinin, Hərbi Elmi-Tədqiqat İnstitutunun, Hərbi İdarəetmə İnstitutunun və Heydər Əliyev adına Hərbi İnstitutun nizamnamələri təsdiq edilib.

**- Milli Müdafiə Universitetinin necə fəaliyyət göstərəcəyini də bilmək istərdik. Mümkünsə, bu barədə məlumat verərdiniz?**

- Milli Müdafiə Universiteti Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan xüsusi təyinatlı dövlət ali təhsil müəssisəsi kimi fəaliyyət göstərəcək, tabeliyində olan xüsusi təyinatlı təhsil müəssisələri vasitəsilə ali təhsilin bütün səviyyələri üzrə mütəxəssis hazırlayacaq və qoşun növlərində xidmət edən zabitlərin qarşılıqlı əlaqə mexanizmini, komandir və qərargah zabitləri hazırlığında idarəetmənin mexanizmini təkmilləşdirəcək. Milli Müdafiə Universiteti şəbəkəsində həm də tam orta təhsil, orta ixtisas və əlavə təhsil proqramları da həyata keçiriləcək. Bunlardan başqa, Milli Müdafiə Universitetində hərbi yönümlü fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar da yerinə yetiriləcək.

**- Əlavə təhsil proqramı haqqında məlumat verməyinizi xahiş edirəm.**

- Bu proqram səviyyəsindən asılı olaraq briqada komandirlərinin və onların müavinlərinin, tabor komandirlərinin və onların müavinlərinin, müxtəlif səviyyədə ixtisaslar üzrə xidmət rəislərinin və s. hazırlanmasını, eləcə də təkmilləşmə kurslarını əhatə edir.

**- Hərbi Elmi-Tədqiqat İnstitutunun fəaliyyəti necə müəyyənləşdirilir?**

- Hərbi Elmi-Tədqiqat İnstitutu hərbi yönümlü fundamental və tətbiqi elmlər üzrə aktual problemlərlə məşğul olacaq, qeyd etdiyim kimi, elmi və elmi-pedaqoji kadr hazırlığı tapşırıqlarını icra edəcək. Bunlarla bir sırada Müdafiə Nazirliyinin marağı əsasında xüsusi tapşırıqları da yerinə yetirəcəkdir. Göründüyü kimi, bu institutda hərbi elmi problemlərin həlli istiqamətləri üzrə tədqiqatlar aparılacaq.

Təbii ki, bu hazırlıq elmi, hərbi-elmi biliklərin mənimsədilməsini, elmi yeniliklərin hərbi xidmətə tətbiqi imkanlarının araşdırılmasını, sistemləşdirilməsini müəyyənləşdirmək baxımından gərəkli (və zəruri) tədris vəzifələrini yerinə yetirəcək. Bunlar yaxın gələcəkdə Müdafiə Nazirliyinin strukturunda olan xüsusi təyinatlı təhsil müəssisələrinin nüfuzunu yüksəldəcək. Həmçinin Azərbaycan Ordusunun maraqları çərçivəsində konseptual və doktrinal sənədlərin hazırlanmasını həyata keçirəcək. Bu nüfuzun Azərbaycanın sərhədlərini aşacağına əminik. Vətən müharibəsində Qələbə həm də hərb elminin inkişafının perspektivlərini öyrətdi və Milli Müdafiə Universitetinin fəaliyyətində bu perspektiv nəzərə alınacaq.

**- Milli Müdafiə Universitetinin fəaliyyət mexanizmi haqqında nə deyə bilərsiniz?**

- Milli Müdafiə Universitetinin tabeliyində olan xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətində fasiləsizlik, vəhdətlik, daimilik - mövcud təhsil standartları, tədris proqramları və planları əsasında bir neçə səviyyədə təhsil əldə edilməsi imkanı, təhsilin ayrı-ayrı pillələri arasında sıx dialektik qarşılıqlı əlaqənin təmin olunması başlıca fəaliyyət prinsipidir. Əminik ki, bu təhsil islahatı millilik və dünyəvilik - milli və ümumbəşəri dəyərlərin dialektik vəhdətinin təmin edilməsi əsasında inkişafa və dünyəvi təhsil sisteminə inteqrasiyaya əsaslı, dayanıqlı nümunə olacaq...

Mahiyyət baxımından hərbi təhsil sistemində islahatlar xüsusi təyinatlı elm və təhsil müəssisələrində tədris materiallarının gərəkli elmi biliklərlə zənginləşdirilməsinə, hərbi təhsilin təkmilləşdirilməsinə yönəldilir ki, bu da şəxsi heyətin, deməli, ordunun döyüş hazırlığının artırılmasında müstəsna əhəmiyyətə malik olur, islahatın mahiyyəti ictimailəşdirilir. Bu məqam hər bir hərbi qulluqçunu islahatın həm təbliğatçısı edir, həm də icraçısı. Milli Müdafiə Universitetinin strukturlarına daxil olan institutlarda, xüsusi təyinatlı təhsil müəssisələrində xidmət edəcək hərbi qulluqçuların, elmi kadrların, işləyəcək mülki işçilərin dövlətin bu etimadını əsl vətəndaşlıq sevgisi ilə doğruldacağına əminik...

Bu islahatda ulu öndər Heydər Əliyevin "Bizim ölkənin gələcək taleyi gənclərə nəyi və necə öyrətməyimizdən asılıdır" kəlamının da işığı görünür. Bu islahat ordumuzun gücünün, qüdrətinin yüksəlməsi baxımından əhəmiyyətli olacaq.

**- Cənab general-leytenant, gərəkli və maraqlı müsahibəyə görə sağ olun.**

- Sağ olun.

**Müsahibəni apardı:**
**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Hərbi İdarəetmə İnstitutunda NATO-nun təlim kursu keçirilir



Müdafiə Nazirliyinin NATO ilə 2022-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı çərçivəsində Milli Müdafiə Universitetinin tərkibində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunda NATO-nun Brunssum şəhərində (Niderland Krallığı) yerləşən Birləşmiş Qüvvələr Komandanlığının Mobil təlim qrupu tərəfindən "NATO-da əməliyyatın planlama prosesi" mövzusunda təlim kursu keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, kurs müddətində dinləyicilərə NATO haqqında ümumi məlumat, ştat strukturu və əməliyyatların planlama prosesi ilə bağlı müxtəlif sahələr üzrə brifinqlər təqdim olunur.

Həmçinin mövzuya dair fikir mübadiləsi aparılaraq, praktiki qrup çalışmaları yerinə yetirilir.

# Dəniz piyadalarının hazırlığı davam edir

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Hərbi Dəniz Qüvvələrində dəniz piyadalarının "SAT xüsusi təyinatlı kursu" keçirilir. Kurs ərzində hərbi qulluqçular fiziki və psixoloji dayanıqlılıqlarının yoxlanılması üzrə müxtəlif tapşırıqları yerinə yetirirlər. Gecə və gündüz ən çətin şəraitdə belə iştirakçıların dözümlülüyünün artırılması məqsədilə qarşıya qoyulan bütün tapşırıqlar uğurla icra olunur.

"SAT xüsusi təyinatlı kursu" oktyabrın 22-dək davam edəcək.



# "Komando hazırlığı" kursunu bitirənlərə sertifikatlar verilib





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunda şəxsi heyətin hazırlıq səviyyəsinin və bölmələrin döyüş qabiliyyətinin daha da artırılması istiqamətində görülən işlər davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, cari ilin hazırlıq planına uyğun olaraq, "Komando hazırlığı" kursunu müvəffəqiyyətlə bitirən hərbi qulluqçulara sertifikatların və beretlərin təqdimolunma mərasimi keçirilib.

Mərasimdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Buraxılış mərasimində Türkiyə Silahlı Qüvvələrinin təcrübəsinə əsaslanan "Komando hazırlığı" kurslarının əhəmiyyəti diqqətə çatdırılıb. Çıxış edənlər şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsində bu kimi kursların müsbət təsirini xüsusi vurğulayıb və hərbi qulluqçulara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Sonra kursu müvəffəqiyyətlə bitirən hərbi qulluqçulara sertifikat və beretlər təqdim olunub, şəxsi heyət tribuna önündən təntənəli keçid edib.



# Ermənistan tərəfi dövlət sərhədində vəziyyəti gərginləşdirməyə çalışır

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, iyunun 2-si axşam saatlarından iyunun 3-ü gecə saatlarınadək Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Yuxarı və Aşağı Şorca yaşayış məntəqələri istiqamətlərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Zəylik və Yellicə yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini qumbaraatan və iriçaplı silahlardan da istifadə etməklə növbəti dəfə atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən dərhal cavab tədbirləri görülüb.

Şəxsi heyət və texnika baxımından itkimiz yoxdur.

Hazırda bütün istiqamətlərdə vəziyyət bölmələrimizin tam nəzarəti altındadır.

Ermənistan tərəfi öz ictimaiyyətinin diqqətini daxildə baş verən proseslərdən yayındırmaq məqsədilə iriçaplı silahlardan istifadə edərək dövlət sərhədində vəziyyəti gərginləşdirməyə çalışır.

Bildiririk ki, qarşı tərəfin törətdiyi təxribatların nəticələrinə görə bütün məsuliyyət bu ölkənin hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# "Efes-2022" təlimində növbəti mərhələ üzrə tapşırıqlar icra edilib

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Türkiyə Respublikasının İzmir şəhərində keçirilən "Efes-2022" çoxmillətli təlimində növbəti mərhələnin tapşırıqları yerinə yetirilib.

Beynəlxalq təlimin planına uyğun olaraq iştirakçılar şərti terror dəstəsi tərəfindən avtomobilə yerləşdirilən partlayıcı qurğunun aşkar olunaraq zərərsizləşdirilməsi, helikopterlər vasitəsilə şərti düşmən obyektinə aviazərbələrin endirilməsi, dəniz piyadalarının sahil xəttinə çıxması və yüksəkliklərin ələ keçirilməsi, həmçinin axtarış-xilasetmə əməliyyatı və yaralıların təxliyə olunması mərhələləri üzrə tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

Təlim iştirakçıları, eyni zamanda, zəbt olunmuş geminin azad edilməsi və helikopterdən dəniz xüsusi təyinatlılarının gəmiyə enməsi üzrə fəaliyyətləri də müvəffəqiyyətlə yerinə yetiriblər.

Əlahiddə Ümumqoşun Ordunun və Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçularının da iştirak etdiyi beynəlxalq təlim iyunun 9-dək davam edəcək.







# "N" hərbi hissəsində şəhid Seymur Allahverdiyevin anım mərasimi keçirildi

*Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək yeni Zəfər tarixi yazdı. Aparılan bütün döyüş əməliyyatlarında yüksək peşəkarlıq nümayiş etdirərək, düşmən üzərində parlaq qələbə qazandı. Bu qələbə ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu və Ali Baş Komandan İlham Əliyevin uğurla davam etdirdiyi ordu quruculuğu siyasətinin müsbət nəticəsinin təzahürüdür.*



Beləliklə, Qarabağ işğaldan azad olundu. Bu şanlı qələbə Vətəninə bağlı oğulların canı bahasına qazanıldı. Neçə-neçə oğullarımız yurdu, torpağı uğrunda ölümün gözünə dik baxdı. Atalar sözündə deyildiyi kimi: "Ordun varsa, yurdun var". Azərbaycan xalqı canını doğma yurdunun müdafiəsi üçün fəda edən soydaşlarımızı və şanlı Zəfəri əsrlər sonra da unutmayacaq.

Şəhidlərin xatirəsinə həsr olunan tədbirlərin keçirilməsi xalqın şəhidinə ehtiramıdır. Özəl günlərdə şəhid ailələri ziyarət olunur, Şəhidlər xiyabanında ruhlarına dualar oxunur.

"N" hərbi hissəsində Vətən müharibəsi şəhidi, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Seymur Allahverdiyevin doğum günü münasibətilə anım mərasimi keçirildi.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyev və Azərbaycan Respublikasının müstəqilliyi və suverenliyi uğrunda canlarını əsirgəməyən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət Himni səsləndirildi.

Mərasimdə tarixi ərazilərimizin azadlığı uğrunda başlayan və 44 gün davam edən müharibədə Müzəffər Ali Baş Komandanın siyasi iradəsindən, rəşadətli Azərbaycan Ordusunun döyüş qabiliyyətindən, igid oğulların yazdığı qəhrəmanlıq salnaməsindən və xalqımızın birliyindən söz açıldı. Sonra mərasim iştirakçılarına şəhid Seymur Allahverdiyevin həyat və döyüş yolu haqqında məlumat verildi. Mayor Rəşad Əliyev çıxış edərək bildirdi ki, insanı yaşadan arzulardır. "Amma hər bir insanın qəlbində tarixdə qalmaq arzusu da var. Ərazi bütövlüyümüzü 44 gün ərzində bərpa edən şəhidlərimiz isə Qarabağı azad görmək arzusu ilə tarixdə qaldılar. Bu gün canını fəda edərək tarixləşən şəhid Seymur Allahverdiyevin doğum günüdür. Yaşasaydı, 37 yaşı olacaqdı. Seymur 1985-ci il iyunun 1-də Gədəbəy rayonunun Parakənd kəndində anadan olub. Həmin kəndin tam orta məktəbində təhsil alıb, daha sonra Gəncə şəhər Tibb Texnikumuna daxil olub. Hərbi xidmətdə də fəaliyyətinə tibb işçisi kimi başlayıb, sonradan yüksək nizam-intizam nümayiş etdirdiyi üçün manqa komandiri vəzifəsinə yüksəlib. Onu tanıyan hər kəs bilir ki, qanında əsl döyüşçü qanı axırdı, qəlbi Vətən eşqiylə döyünürdü. Seymur canından keçsə də, Azərbaycanı bütöv görmək xəyalından əl çəkmədi. Allahdan Seymura və onun simasında bütün şəhidlərimizə rəhmət, qazilərimizə can sağlığı diləyirik".

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək, qarşıya qoyulan tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, kiçik çavuş Allahverdiyev Seymur Qərib oğlu (ölümündən sonra) "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Anım mərasimindən sonra hərbi hissənin nümayəndələri 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə şəhid ailələrini ziyarət etdilər. Keçirilən görüşdə vurğuladılar ki, şəhidlərimizin xatirəsi əbədidir və hər zaman uca tutulur.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# "Fövqəladə hallarla mübarizədə yeni texnologiyaların tətbiqi" mövzusunda elmi-praktiki konfrans keçirilib



Fövqəladə Hallar Nazirliyinin Akademiyasında Azərbaycan Xalq Cümhuriyyətinin 104 illiyinə həsr olunan "Fövqəladə hallarla mübarizədə yeni texnologiyaların tətbiqi" mövzusunda keçirilən IX elmi-praktiki konfransda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin müəllim və kursant heyəti də iştirak edib.

Konfransda iştirak edən müxtəlif təhsil müəssisələrinin professor-müəllim heyəti dövrümüzün aktual problemlərindən biri sayılan fövqəladə hallarla bağlı elmi açıqlamalar verərək, "Fövqəladə hallarla mübarizədə yeni texnologiyaların tətbiqi" mövzusunda müxtəlif məruzələrlə çıxış ediblər. Hərbi liseyin müəllim və kursant heyəti "Sosial xarakterli fövqəladə hallar", "Təbiətdə baş verən hidroloji hadisələr", "Heydər Əliyev və Azərbaycan təhsili", "Təbii fəlakətlər və onlarla mübarizə" mövzularında çıxış edərək konfrans iştirakçılarının suallarını cavablandırıblar.

Sonda konfrans iştirakçıları sertifikatlarla təltif olunublar.

**"Azərbaycan Ordusu"**

# ANAMA: Ötən ay 2098 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, mayın 1-dən 31-dək Tərtər, Ağdam, Füzuli, Xocavənd, Şuşa, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 546, tank əleyhinə 279 mina və 1021 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Ay ərzində 2098,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

2020-ci il noyabrın 10-dan bu il mayın 31-dək azad edilmiş ərazilərdə piyada əleyhinə 11555, tank əleyhinə 5723 mina və 16041 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Eyni zamanda, 11666,9 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

# Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib






Müdafiə nazirinin tapşırığına əsasən, 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Azərbaycan Ordusunun hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlərdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

Bayram münasibətilə şəhid və qazi ailələri ziyarət edilib, uşaqların hərbi hissələrə səfərləri təşkil olunub, əsgərlərlə görüşlər keçirilib, eləcə də Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, rayon mədəniyyət müəssisələri kollektivlərinin təşkilatçılığı ilə konsert proqramı təqdim olunub.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)**

## Mövzu: Azərbaycan Ordusunun yaranması və formalaşması tarixi

**Suallar:**

**1. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu.**

**2. Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri.**

### Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu

Hər bir xalqın, millətin taleyində mühüm yer tutan hadisə azadlığa qovuşmaq və müstəqil dövlətçiliyə sahib olmaqdır. Şübhəsiz, bu yol çox çətin və məsuliyyətli bir yoldur. Öz azadlığı uğrunda son anadək mübarizə aparan millət xoşbəxtdir. Məhz Azərbaycan xalqı da tarix boyu belə mübarizələrdən keçib, azadlığa aparan yolda mürəkkəb şəraitlərdən çəkinməyib.

Azərbaycan müstəqillik əldə edənə qədər bəşəriyyət tarixinin ən dəhşətli və ən qanlı hərbi-feodal müstəmləkə rejimi olan çar Rusiyasının tərkibində idi. Romanovlar monarxiya rejiminin devrilməsi nəticəsində yaranmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın Şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən parlamentli respublika formasında dirçəldi. Gənc Azərbaycan dövləti son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə müstəqillik əldə etmişdi. Bakıda hakimiyyəti S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik qrupu ələ keçirmiş və Azərbaycanın türk-müsəlman əhalisinə qarşı dəhşətli soyqırıma başlamışdı. Azərbaycan xalqı fiziki cəhətdən məhv edilmək təhlükəsi qarşısında idi. Neft Bakısını ələ keçirməyə çalışan xarici qüvvələr arasındakı rəqabət sona çatmaqda və bütün Cənubi Qafqaz üçün yeni təhlükə - bolşevik Rusiyasının təcavüzü təhlükəsi yaxınlaşmaqda idi. Azərbaycan xalqı öz tarixinin ağır yolayrıcında qalmışdı. Azərbaycanda ordu quruculuğunun əsasının qoyulması belə çətin və mürəkkəb şəraitə təsadüf etmişdir.

Həmin dövrdə Azərbaycan bolşevik-daşnak qüvvələrinin qarşısını almağa qadir deyildi. Azərbaycan hökuməti hərbi kömək üçün Osmanlı Türkiyəsinə müraciət etdi. 1918-ci il iyunun 4-də Azərbaycanla Osmanlı Türkiyəsi arasında imzalanmış müqaviləyə uyğun olaraq Türkiyə hökuməti Azərbaycana hərbi yardım göstərmək qərarına gəldi və Azərbaycana 15000 nəfərdən ibarət iki diviziya göndərildi. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Çar Rusiyası dövründə keçmiş Tatar süvari alayının əsgərlərindən formalaşdırılmış və general Əlağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman korpusunun əsasında ilk ordu hissəsi, 5000 nəfər şəxsi heyəti olan "Əlahiddə Azərbaycan korpusu" yaradıldı. Gənc Demokratik Cümhuriyyətin yaradıcıları milli dövlətçiliyimizi qorumaq, ölkəni xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün özünün silahlı qüvvələrini yaratmaqla, milli dövlətçiliyimiz yolunda qarşısıalınmaz bir prosesə başladılar.

İyulun 11-də ölkə ərazisində hərbi səfərbərlik elan edildi. 1919-cu ilin sonunadək 25 minlik Azərbaycan Ordusu yaradılmışdı. Obyektiv çətinliklər (Sentrokaspi diktaturası və ingilis müdaxiləçilərinin təmizlənilməsi) üzündən hərbi-dəniz qüvvələrinin təşkilinə 1919-cu illərin sonlarında başlanıldı. Hərbi nazirlik hərbi-hava qüvvələrinin təşkilinin zəruriliyini nəzərə alaraq müvafiq kadrların hazırlanması üçün 1919-cu ildə Azərbaycan-Gürcüstan hərbi əməkdaşlıq müqaviləsi bağlandı. Bu müqaviləyə əsasən, Azərbaycandan bir qrup heyət təyyarəçi peşəsinə yiyələnməsi üçün Tiflis Aviasiya məktəbinə göndərildi. Milli kadrlara olan ehtiyacların ödənilməsi üçün isə 1920-ci ildə Azərbaycanda hərbi təyyarəçilər məktəbi açıldı.

1918-ci ildə Azərbaycana göndərilmiş Osmanlı hərbi qüvvələrinin bazasında Qafqaz İslam Ordusu yaradıldı və Azərbaycanda ordu quruculuğuna və ordu hissələrinin fəaliyyətinə rəhbərlik Azərbaycan hökumətinin razılığı ilə Qafqaz İslam Ordusu komandanına həvalə edildi. Hərbi Nazirliyin təşkili müvəqqəti olaraq təxirə salındı. Hökumət strukturunda isə Qafqaz İslam Ordusu komandanlığı ilə əlaqələri nizamlayacaq hərbi işlər üzrə baş müvəkkil vəzifəsi təsis olundu və İsmayıl xan Ziyadxanov bu vəzifəyə təsdiq edildi. Qafqaz İslam Ordusunun mövcudluğu dövrü Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğunun birinci mərhələsini təşkil etdi. 1918-ci il noyabrın 1-dən isə Cümhuriyyətin ordu quruculuğunun ikinci mərhələsi başladı. Həmin gün Azərbaycan hökuməti Hərbi Nazirliyin bərpa edilməsi haqqında qərar qəbul etdi. Nazirlər Şurasının qərarına əsasən, Azərbaycan hökumətinin sədri Fətəli xan Xoyski hərbi nazir vəzifəsini öz üzərinə götürdü. Səməd bəy Mehmandarov isə hərbi nazirin müavini təyin edildi.

Hərbi Nazirlik 1918-ci il noyabrın 22-də Gəncəyə köçmək məcburiyyətində qaldı. 1919-cu ilin iyunun sonlarına kimi paytaxtdan və hökumət orqanlarından uzaqda fəaliyyət göstərməli oldu. 1919-cu ilin iyunun sonlarında Bakıya köçürülən Hərbi Nazirlik Krasnovodsk və Merkuri küçələrinin (indiki Zərifə Əliyeva və Səməd Vurğun küçələri) kəsişməsindəki binada yerləşdirildi və Cümhuriyyətin süqutuna qədər burada fəaliyyət göstərdi. 1918-ci il dekabrın 25-də Səməd bəy Mehmandarov Azərbaycan hökumətinin qərarı ilə hərbi nazir, dekabrın 29-da isə general-leytenant Əlağa Şıxlinski (28 iyun 1919-cu ildən etibarən tam artilleriya generalı) hərbi nazirin müavini vəzifəsinə təyin edildilər.

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti Rusiya Sovet Federativ Sosialist Respublikası tərəfindən işğal edildikdən sonra Azərbaycan Hərbi Nazirliyi rəsmən ləğv edilərək, həmin funksiya Xalq Hərbi Komissarlığına verildi, Azərbaycan Ordusunun 21 generalından 15-i güllələndi. Xalq Hərbi Komissarlığına ilk olaraq Çingiz İldırım, sonra isə Əliheydər Qarayev təyin edildilər.

### Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri

Moskvada 1991-ci ilin avqust hadisələrindən sonra Azərbaycanda da ictimai-siyasi vəziyyət daha da kəskinləşdi. Suverenlik, müstəqillik və azadlıq uğrunda mübarizə əməli vəzifəyə çevrildi. Dağlıq Qarabağ özünü müstəqil respublika elan etmişdi. Ermənilər Dağlıq Qarabağdakı Rusiya ordu hissələrinin köməyi ilə Azərbaycanın ətraf yaşayış məntəqələrini işğal edirdi. Hakimiyyət isə ciddi tədbirlər görmək iqtidarında deyildi. Belə bir tarixi və mürəkkəb şəraitdə Azərbaycanda Müdafiə Nazirliyinin bərpasına zərurət yarandı. Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da çağırılmış növbədənkənar sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə" qəbul etdi. Həmin qərarın əsasında respublika prezidentinin 5 sentyabr 1991-ci il tarixli Fərmanına əsasən, Azərbaycanda Müdafiə Nazirliyi təşkil edildi və milli ordunun yaradılmasına başlandı. 1991-ci il oktyabrın 9-da isə Respublika Ali Soveti tərəfindən ordu quruculuğunun hüquqi bazası olan "Milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qanun qəbul edildi. Bu qanuna əsasən, 1991-ci ilin noyabrında 22 sərhədyanı bölgədə döyüş qabiliyyətinə malik olmayan, lazımi silah-sursatla təmin olunmayan yerli əhalidən könüllü ərazi özünümüdafiə batalyonları yaradıldı.

1991-ci ilin sonlarından başlayaraq ölkə daxilində hərbi-siyasi vəziyyətin mürəkkəb olması, hakimiyyətdə olan qüvvələrin ordu quruculuğu sahəsində səmərəli siyasət izləyə bilməməsi, ictimai-siyasi hərəkatların ordu daxilində qarışıqlıq yaratmaq cəhdləri, ordu quruculuğu vahid komandanlıq və bir mərkəzdən idarəolunma prinsipindən tamamilə məhrum edilməsi 1993-cü ilin ortalarına kimi davam etmişdir. Dövlətə rəhbərlik edənlər öz şəxsi mənafelərinə xidmət etdiyindən və fərdi iddialarını həyata keçirmələri səbəbindən ölkədə elə bir vəziyyət yaranmışdı ki, Azərbaycan Ordusu işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı müharibə aparmalı olduğu halda, daha çox özünü qoruyub saxlamaq uğrunda mübarizə aparırdı. Ordu siyasiləşmiş, hakimiyyət uğrunda mübarizə alətinə çevrilmişdi. Bu səhvlərin nəticəsi tez bir zamanda özünü göstərdi. Xocalı soyqırımı törədildi, Şuşa və Laçın işğal edildi, Dağlıq Qarabağla Ermənistan arasında strateji "dəhliz" açıldı və Azərbaycanın neçə-neçə rayonunun sonrakı işğalı üçün zəmin yaradıldı.

1993-cü ilin ikinci yarısında ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın dövlətçilik tarixində istinad nöqtəsi oldu. Tarixi şəxsiyyətlər tarixin axarını xalqının, millətinin mənafeyi istiqamətinə yönəldə bilir. Mustafa Kamal Atatürk Türkiyəni xilas etdi, Heydər Əliyev Azərbaycanı. Ulu Öndərin vahid komandanlığın təmin edilməsi sahəsində gördüyü məqsədyönlü tədbirlər nizami ordunun formalaşmasına səbəb olmaqla yanaşı, Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə də gətirib çıxartdı. Nəticədə mərkəzləşmiş maddi-texniki təminat işində uğurlu addımlar atıldı, müxtəlif qoşun növlərinin, ayrı-ayrı hərbi hissələrin təminatı həyata keçirilməklə formalaşması başa çatdırıldı, fərarilik hallarının qarşısı alındı, orduya çağırış işi təkmilləşdirildi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi. Ulu öndər Heydər Əliyevin qətiyyətinin və böyük sərkərdəlik məharətinin nəticəsi idi ki, Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan Horadiz əməliyyatı baş tutdu və 21 min hektar ərazi - Füzuli rayonunun 22 Arazboyu kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ordu quruculuğu prosesinə 1969-cu ildə respublikaya rəhbər seçilməsi ilə başlamışdır. Belə ki, hərbi kadr sahəsində atdığı addımlar, Cəmşid Naxçıvanski adına hərbi təmayüllü ixtisaslaşdırılmış orta məktəbin əsasının qoyulması, azərbaycanlıların hərbi məktəblərə daxil olmasının təmin edilməsi, milli zabit kadrlarımızın vəzifələrə irəli çəkilməsi Azərbaycanın hərb tarixində yeni bir mərhələnin əsasını qoydu. Ümummilli Lider tərəfindən ordu quruculuğu sahəsində milli maraqlarımızın qorunaraq, inkişaf etdirilməsi istiqamətində atılan tarixi addımlar sonradan müstəqil Azərbaycanda mərkəzləşdirilmiş nizami ordunun yaranmasına təkan oldu. Dahi rəhbər Heydər Əliyev güclü və intizamlı ordunun yaradılmasının, həm də yüksək ixtisaslı milli zabit kadrların mövcudluğundan asılı olduğunu nəzərə alaraq Hərbi Akademiyanı yaratdı, Ali Hərbi Dənizçilik və Ali Hərbi Təyyarəçilik Məktəblərini formalaşdırdı. Bütün bunlar sübut edir ki, bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz ümummilli lider Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir.

Müasir müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik Azərbaycan Ordusu bu gün NATO standartlarına cavab verən səviyyədə formalaşmışdır. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Ordu quruculuğunda mühüm rol oynayan kadr hazırlığı da ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, hərbçilərimiz bir sıra vacib hərbi ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə, Rusiya, Ukrayna, Pakistan, Çin və digər ölkələrə göndərilir. Eyni zamanda, Azərbaycan hərbçiləri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarında da yaxından iştirak edirlər. Azərbaycanın NATO ilə əlaqələri artıq "Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı" çərçivəsində inkişaf edir.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda ən müasir hərbi texnika, silah-sursatın istehsal olunması ilə bərabər, eyni zamanda, xarici dövlətlərdən də alınması üzrə fəaliyyətlər davam etdirilir. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. Təbii ki, Azərbaycan Ordusu gücünü 2016-cı ildə qazanılmış Aprel zəfəri, 2018-ci ildə Günnüt qalibiyyəti, 2020-ci ilin Tovuz döyüşləri və eləcə də 2020-ci ilin sentyabrında ərazi bütövlüyümüzün təmin edilməsi məqsədilə apardığı "Vətən müharibəsi" beşinci nəsil müharibə uğurları ilə də isbatlayıb. Bu gün Azərbaycan əsgəri dövlətin qayğısını hər zaman üzərində hiss edərək, xalqdan güc alaraq torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır. Regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı və ərazi bütövlüyümüzə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmasını tələb edir. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur.

Azərbaycanda ordu dövlət üçün prioritetdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırmasına dair sərəncamları dövlətin orduya qayğısının geniş ölçülü təzahürüdür. Bu qayğı dönməzdir, daimidir. Azərbaycanda ordu quruculuğu dönməz prosesdir. Bu proses ordunun döyüş qabiliyyətinin, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Son illər ərzində maddi-texniki bazanın möhkəmdirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik".

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Abdulla Qurbani: "TEKNOFEST Azərbaycan" festivalı hər bir Vətən əsgərini yeni zəfərlərə ruhlandırır




"Dörd gün davam edən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalı başa çatsa da, Azərbaycan və Türkiyə xalqları, eləcə də dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız hələ də bu unikal tədbirin - elm, inkişaf, bilik, texnologiya bayramının, Azərbaycan-Türkiyə qardaşlığının ən yüksək səviyyədə olmasını tərənnüm edən möhtəşəm təntənənin yaratdığı yüksək əhval-ruhiyyə ilə yaşayır".

Bu sözləri festival çərçivəsində Azərbaycan və türk pilotların iştirakı ilə keçirilən aviaşounun aparıcısı, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani AZƏRTAC-a açıqlamasında deyib.

A.Qurbani bildirib ki, festival günlərindəki böyük qələbəlik, xüsusilə Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu mötəbər tədbirdə iştirakı, tarixi çıxışları, Azərbaycan və Türkiyə qardaşlığının bundan sonra da əbədi, sarsılmaz, daimi olacağını bir daha dünyaya bəyan etmələri bir millət iki dövlətin nümayəndələri kimi, Azərbaycan Ordusunun şəxsi heyətinin də böyük ruh yüksəkliyinə səbəb olub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi "Bu bayramı ikiqat bayram edən əziz qardaşımın bizimlə bərabər olmasıdır... Türkiyənin artan gücü bizi gücləndirir və biz bir-birimizə güc qatırıq. Böyük dünya çapında bir güc mərkəzinə çevrildik. Bundan sonra da Türkiyə və Azərbaycan yüksələn xətlə ancaq və ancaq irəliyə gedəcək", - sözləri hər birimizin qəlbindən keçən kəlamlar idi.

Əməkdar İncəsənət xadimi qeyd edib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın festivalda çıxışı zamanı böyük fərəh hissi ilə vurğuladığı "Bizlər kədəri də, sevinci də bir olan, sözdə deyil, əməldə də qardaş olan iki dövlətik, iki xalqıq. Göylərdə nazlı-nazlı dalğalanan ayparalarımız kimi, biz eyni inancı bölüşən qədim bir millətin mənsublarıyıq... Biz haqsızlıq qarşısında susanlardan olmadıq və olmayacağıq... Biz təzyiqlə, təhdidlə qorxudulanlardan olmadıq, əsla olmayacağıq. İşğala və haqsızlığa qarşı hər şəraitdə doğru olanı söyləməkdən, haqlı mübarizəmizi müdafiə etməkdən geri durmadıq və durmayacağıq. Bizim heç kimin torpaqlarında, ərazi bütövlüyündə gözümüz olmadığı kimi, xəbis niyyətlərə verəcək bir qarış torpağımız da yoxdur və olmayacaq. Çünki biz təsadüflərin bir araya gətirdiyi insanlar deyil, tarixi, mədəniyyəti və mədəni dəyərləri ilə seçilən böyük bir millətin övladlarıyıq. Harada zülm, haqsızlıq, ədalətsizlik varsa, səsini ucaldan, bütün gücü ilə mübarizəyə qalxan ürəkli bir millətin nümayəndələriyik. Qarabağ Zəfəri millətimizin qəhrəmanlıq dastanlarının ən son örnəyidir" fikirləri Azərbaycan Ordusunun qoşun növü, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində keçirilən tədbirlərdə bir daha səsləndiriləcək, əsgər və zabitlərimizin döyüş ruhunu, qələbə əzmini daha da artırır.

İctimai-siyasi hazırlıq dərslərində şəxsi heyət Azərbaycan və Türkiyə prezidentlərinin çıxışlarını vizual olaraq izləyir, videoçarxlar nümayiş olunur və "TEKNOFEST" festivalının beynəlxalq brendə çevrilməsinin məhz Azərbaycandan start götürməsi tarixi hadisə kimi dəyərləndirilir.

Polkovnik A.Qurbani vurğulayıb ki, Bakı Kristal Zalı və Dənizkənarı Bulvarda keçirilən festival zamanı Azərbaycanın və Türkiyənin dövlət qurumları və şirkətləri ilə yanaşı, Müdafiə Nazirliyinin də təqdim etdiyi hərbi texnikalar, aviasiya vasitələri, radiokəşfiyyat, rabitə cihazları, Hərbi Dəniz Qüvvələrinin nümayiş etdirdiyi avadanlıq və qurğular da festival iştirakçılarının böyük marağına səbəb olub. Ziyarətçilərə "Böyük gələcəyə baxış", "Vətən müharibəsi şəhidləri" və "Azərbaycan-Türkiyə: Qardaşlığın təntənəsi" adlı nəşrlər hədiyyə edilib.

Festival çərçivəsində keçirilən aviaşouda Türkiyə Hərbi Hava Qüvvələrinin, o cümlədən "Türk Ulduzları", "Solo Türk" aerobatika komandalarının pilotları ilə yanaşı, Azərbaycanın milli şahinləri də heyrətamiz ali pilotaj göstəriləri ilə festival iştirakçılarını heyran ediblər. Vətən müharibəsi iştirakçıları - "Qarabağ" ordenli polkovnik Zaur Rüstəmovun və "Rəşadət" ordenli polkovnik Ruslan Ələkbərovun çıxışları tamaşaçılara həyəcanlı anlar yaşadıb. Hər bir azərbaycanlı fəxr edib ki, indi Azərbaycanın hava məkanını qorumağa, müstəqilliyimizi qorumağa qadir olan milli şahinləri var. Festivala qatılan milli şahinlərimiz və sərgilərin bələdçiləri olan hərbi qulluqçular xidmət yerlərinə qayıdaraq döyüş yoldaşları ilə bir-birindən maraqlı festival təəssüratlarını bölüşürlər. Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalında yaşanan böyük qələbəlik hər bir Azərbaycan əsgərini daha böyük zəfərlər qazanmağa ruhlandırıb.

# Döyüş təəssüratları Zəfərin davamıdır



Arif Ruslan oğlu Cəfərov Şəmkirin Çardaqlı qəsəbəsində anadan olmuşdu. Uşaqlığından şəhidliyin nə olduğunu o da dərk etmişdi - şəhid Natiq Süleymanov adına orta məktəbdə oxuyurdu. O da bilirdi ki, şəhidlərə hamının sonsuz sevgisi, ehtiramı var...

Orta məktəbdə oxuyanda məktəblilər arasında keçirilən hərbi təmayüllü idman yarışlarında fəal iştirak edirdi. O illərdə bu, uşaqlıq, yeniyetməlik həvəsi olsa da, onun gələcəkdə istər fiziki baxımdan formalaşmasında, istər dünyaduyumunun genişlənməsində əhəmiyyətli olacağı haqqında düşünmürdü. Məşqlərdə hərbi rəhbərin öyrətdiklərini həvəslə yerinə yetirirdi. Avtomatı nəzərdə tutulan normativə uyğun söküb-yığırdı. Onu yoldaşlarına nümunə göstərirdilər.

Dəqiq atəş açmağı, hədəfi düzgün vurmağı da bacarırdı. "Bunlar hərbi xidmətdə gərəyim olacaq, onda bildiklərimi daha da təkmilləşdirərəm..." - belə düşünürdü və müəllimləri onun gərəkli düşüncələrini qiymətləndirirdilər...

Arif Cəfərov orta məktəbi 2018-ci ildə bitirdi. Onu da hərbi xidmətə çağırdılar. Orta məktəbdə oxuyanda öyrəndiklərinin bəhrəsini hərbi xidmətdə aydınlığıyla hiss edirdi; avtomatla davranışını, onu səliqə ilə həm də normativə əsasən söküb-yığma bacarığını, dəqiq atəş açmasını komandirləri bəyənirdi. Əsgər Arif Cəfərov hərbi intizama da ciddi əməl edirdi.

Hərbi xidməti başa çatdı. O da ordu sıralarından tərxis edildi...

Ermənistan silahlı birləşmələri yeni ərazi işğal etmək niyyəti ilə 2020-ci il sentyabrın 27-də işğal edilmiş ərazilərimizdən torpaqlarımıza hücum etdi. Ordu hissələrimiz bu hücumun qarşısını qətiyyətlə aldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin döyüş əmri ilə əks-hücum əməliyyatı başladı. Ölkədə qismən səfərbərlik elan edildi. Onda Akif Cəfərov da döyüşlərə çağırıldı...

Arif Cəfərov ilk döyüş ərəfəsində söhbət zamanı yoldaşlarına həqiqi hərbi xidmətdə komandirindən eşitdiyi bir fikri xatırlatmışdı:

- Hər biriniz döyüş əmrinin siz hərbi xidmətdə olanda verilməsini istəyirsiniz. Bu istək Azərbaycan əsgərinin mənəvi zənginliyinin, Vətən sevgisinin təzahürüdür. Vətən müharibəsi başlayıb. Biz bu sevginin işığında döyüşəcəyik.

Döyüşçülər Arifin sözlərini razılıqla qarşılamışdılar.

Arif Cəbrayıl, Füzuli, Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak etdi.

Qubadlı ətrafında döyüş gedirdi. Düşmənin müdafiə mövqelərinə həmlə edilməsi üçün ayrılan qrupun tərkibində o da vardı. Əmrə əsasən, düşmənin mövqeyinə səssiz yaxınlaşmalıydılar, onlardan bir qədər əvvəl göndərilmiş qrup atışa başlayanda hücum etməliydilər. Düşmən ikitərəfli hücumun qarşısını almaq istəyəndə əsas qrup mövqeyə qəti hücum edəcəkdi. Belə də oldu.

İlk atəş eşidilən kimi atışa-atışa hücuma keçdilər. Ağır döyüş gedirdi. Eyni vaxtda iki müxtəlif istiqamətdən hücuma məruz qalan düşmən qüvvələrini bölüşdürməyə məcbur oldu. Düşmən çaşbaş qalmışdı. Döyüş gərginləşdiyi məqamda əsas qrup hücuma keçdi. Düşmən atışa-atışa geri çəkilirdi...

Arif Cəfərov yaralandı. Onu döyüşdən çıxartdılar, az sonra təxliyə etdilər...

Vətən müharibəsi Zəfərlə başa çatdı. Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə Arif Cəfərov "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi...

Arif Cəfərov da digər Vətən müharibəsi iştirakçıları kimi yeniyetmələrə döyüşlərdən, qəhrəmanlardan danışmağı Vətən müharibəsində qazanılan Zəfərin mənəvi davamı bilir. Bu da mənəvi kamilliyin təzahürüdür. Həm danışanın, həm də dinləyənin mənəvi kamilliyi...

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Suriya ərazisində daha 11 terrorçu zərərsizləşdirilib



Türkiyə Silahlı Qüvvələri tərəfindən keçirilən əməliyyat nəticəsində 11 PKK-YPG terrorçusu zərərsizləşdirilib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib.

Məlumata əsasən, terrorçular Suriya ərazisində, "Sülh çeşməsi" əməliyyatlarının keçirildiyi bölgədə zərərsizləşdiriliblər.

Onların Türkiyə ordusunun hərbçilərinə qarşı təxribat törətdikləri bildirib.

## İran yeni raket və PUA-lar təqdim edib



İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Məhəmməd Baqerinin iştirakı ilə yeni raket və pilotsuz uçan aparatlar (PUA) təqdim olunub.

General hərbi bazaya gələrək yeni "Heydər-1" raketi, "Fatras" və "Kaman-22" PUA-lar ilə tanış olub. Qeyd edilib ki, "Heydər-1" raketi 200 kilometr uzaqlıqdakı hədəfləri dəqiq vurmaq imkanına malikdir.

Yeni PUA-lar isə raket daşımaq üçün nəzərdə tutulub. Döyüş zamanı raketlə təchiz olunan "Fatras" və "Kaman-22" PUA-ları 1000 kilometrlik məsafədəki hədəfləri məhv edə bilər.

## Almaniya Ukraynaya hava hücumundan müdafiə sistemləri verəcək



Almaniya Kiyevə hərbi dəstəyini davam etdirəcək və yaxın həftələrdə Ukraynaya müasir IRIS-T hava hücumundan müdafiə sistemləri göndərəcək.

Almaniya mediası xəbər verir ki, bu barədə kansler Olaf Şolts Bundestaqda çıxışı zamanı deyib.

"Yaxın həftələrdə biz Ukraynaya növbəti silah tədarükünü həyata keçirəcəyik. Hökumət Kiyevə Almaniyanın ən müasir IRIS-T hava hücumundan müdafiə sistemlərini vermək qərarına gəlib", - deyə Olaf Şolts bildirib. Onun sözlərinə görə, Ukraynaya, həmçinin ən müasir radiolokasiya stansiyaları da veriləcək.

"Bild" qəzeti Ukraynanın bu sistemlərdən yalnız noyabr ayından başlayaraq istifadə edə biləcəyini yazıb. Almaniya, eyni zamanda, Hollandiya ilə razılıq əsasında Kiyevə 12 ədəd PzH 2000 haubitsası çatdıracaq. Hazırda ukraynalı hərbçilər onlardan istifadə üzrə təlimlər keçirlər. Həmçinin Berlin dairəvi mübadilə sistemi çərçivəsində Ukraynaya hərbi yardım müqabilində Çexiyaya 15 ədəd "Leopard 2 A4" tankı göndərəcək.

IRIS-T hava hücumundan müdafiə sistemləri 40 kilometr məsafəyə və 20 kilometr hündürlüyə qədər təyyarələri, helikopterləri, dronları və digər hava hədəflərini vurmaq üçün nəzərdə tutulub.

## Yaponiya xaricə qırıcı təyyarələrin və raketlərin ixracına icazə verməyi planlaşdırır



Yaponiya hökuməti ölkədə istehsal olunan müdafiə məqsədli avadanlığın ixracına qoyulan məhdudiyyətlərin yumşaldılması fonunda xarici ölkələrə qırıcı təyyarələrin və raketlərin ixracına icazə verməyi planlaşdırır.

Bu barədə mayın 28-də "Nikkei" qəzeti məlumat yayıb. Bildirilir ki, bu cür silahların və texnikanın ilkin olaraq Avstraliya, Hindistan, Avropa və Cənub-Şərqi Asiya dövlətlərinə ixrac edilməsi nəzərdə tutulur. Bununla əlaqədar Yaponiya qanunvericiliyinə müvafiq dəyişikliklərin cari ildə qəbul olunacağı gözlənilir.

**AZƏRTAC-ın materialları əsasında**

*Fiziki hazırlıq*

# "Verilən bütün idman tapşırıqlarını asanlıqla icra edirlər"

İdman hər bir insanın həyatında mühüm əhəmiyyət kəsb edir. İdmanla məşğul olan şəxs güclü, fiziki cəhətdən sağlam və qüvvətli olur. Buna görə də rəşadətli Azərbaycan Ordusunda şəxsi heyətin fiziki hazırlığı üzrə məşğələləri daim diqqət mərkəzində saxlanılır. Gündəlik icra edilən idman vərdişləri nəticəsində əsgərlər hazırlıqlı döyüşçüyə çevrilirlər. Fiziki cəhətdən möhkəm olmaları onların döyüş ruhunu daha da artırır. Məhz bu səbəbdən fiziki hazırlıq döyüş hazırlığının ayrılmaz tərkib hissəsi sayılır.

Qarşıya qoyulan döyüş tapşırıqlarının düzgün və vaxtında yerinə yetirilməsi hər bir əsgər və zabitdən nəzəri biliklə yanaşı, fiziki hazırlıq da tələb edir. Döyüşdə uğur qazanmaq üçün müasir silahlardan istifadə etmək, həmçinin fiziki cəhətdən hazırlıqlı olmaq mütləqdir.

44 günlük Vətən müharibəsində cəsur döyüşçülərimizin göstərdikləri şücaət onu deməyə əsas verir ki, fiziki cəhətdən hazırlıqlı olan hərbi qulluqçularımız müasir texnika və silahlardan düzgün istifadə edərək, verilən döyüş tapşırıqlarını cəld və çevik yerinə yetirib, düşmən ordusunu tamamilə məhv etdilər.





"N" hərbi hissəsində şəxsi heyət günün nizam qaydalarına uyğun olaraq fiziki hazırlıqla məşğul olurdu. Yaranan fürsətdən istifadə edib leytenant Alı Cəfərovla həmsöhbət olduq. O bildirdi ki, Müdafiə Nazirliyi rəhbərliyinin göstərdiyi diqqət və qayğı nəticəsində hərbi hissəmizdə müasir standartlara uyğun formalaşdırılan idman şəhərciyi hərbi qulluqçularımızın istifadəsindədir. "Şəxsi heyət yaradılan şəraitdən səmərəli istifadə edərək, fiziki hazırlıqlarını daha da artırır, verilən bütün idman tapşırıqlarını asanlıqla icra edirlər. Onların maraqlarını daha da artırmaq üçün hərbi hissədə yarışlar təşkil olunur. Yarışlarda fərdi və yaxud komanda şəklində qalib yer qazanan hərbi qulluqçularımız mükafatlandırılırlar. Qeyd etmək istəyirəm ki, fiziki hazırlıq məşğələsinin keçirilməsində əsas məqsəd döyüşçünün sağlamlığını, iradəsini və dözümlülüyünü yüksəltməkdir. Buna görə də gündəlik fiziki hazırlıq məşğələləri keçirilir, normativlərə uyğun olaraq imtahanlar götürülür".

Ordu sıralarına Tərtər rayonundan qatılan kiçik çavuş Murad Səfərli bildirdi ki, hər birimizin məqsədi Vətən torpaqlarını düşməndən qorumaqdır. "Buna görə də nəzəri biliklərimizlə yanaşı, fiziki hazırlığımızı da daim yüksək səviyyədə saxlamalıyıq. Güclü olmalıyıq ki, verilən tapşırıqları qısa müddət ərzində icra edib, torpaqlarımıza əl uzadanların əllərini qoparaq. Vətən müharibəsində qazanılan Qələbə döyüşçülərimizin güclü, iradəli və dözümlü olmalarının əyani sübutudur".

- Hər birimiz güclü və qalib Azərbaycan Ordusunun əsgəriyik, - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Əziz Allahverdiyev dedi: "Keçirilən təlimlər nəticəsində döyüş hazırlığımızı, fiziki hazırlıq dərslərində isə gücümüzü artırırıq. Peşəkar komandirlərimizin rəhbərliyi altında hərbin bütün sirlərinə dərindən yiyələnmişik. Qarşıya qoyulan istənilən tapşırığın öhdəsindən asanlıqla gəlməyə qadirik".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Elvin və Elmar Aliyev qardaşları və başqa hərbi qulluqçular fiziki hazırlığın insanda iradəni, dözümü, gücü artırmaq üçün əsas vasitə olduğunu dedilər.

Hər bir insan bədəninin sağlam olması üçün çalışmalıdır. Necə deyərlər, sağlam bədəndə sağlam ruh olar.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# İdman

## Karate və parakarateçilərimiz Avropa çempionatında altı medal qazanıblar




Karateçilərimiz Türkiyənin Qaziantep şəhərində keçirilmiş 57-ci Avropa çempionatını altı medalla başa vurub. Mükafatların ikisi qızıl, bir o qədəri isə gümüş və bürüncdür.

Qızıl medalları parakarate seçmə komandasının üzvlərindən Emiliya Mitilinova (görmə qüsurlu idmançılar) və Eldar Əhmədov (əlil arabası istifadəçiləri) qazanıblar. Nihad Məmmədzadə (görmə qüsurlu idmançılar) isə gümüş medala sahib olub.

Heyəti Rafael Ağayev, Asiman Qurbanlı, Rafiz Həsənov, Turqut Həsənov, Ayxan Mamayev, Pənah Abdullayev və Tural Ağalarzadədən ibarət milli komandamız Avropa ikincisi olub. Fərdi kumite yarışlarında isə yeganə medalı üçüncü yerə çıxan Mədinə Sadiqova (55 kq) qazanıb.

Kata üzrə baş məşqçi Vahid Ayvazovun müşayiət etdiyi İsmayıl Quliyev, Tural Balcanlı, Rövşən Əliyev və Roman Heydərovdan ibarət heyət komanda yarışlarında Avropa üçüncüsü olub.

Yekun nəticəyə görə, Azərbaycan ümumi komanda hesabında medal qazanan ölkələr arasında 11-ci yeri tutub. Parakarate üzrə isə idmançılarımız Avropada ikinci olublar.

## "Norway Chess": Şəhriyar Məmmədyarov Van Hao, Teymur Rəcəbov Maksim Vaşye-Laqrav ilə mübarizə aparacaqlar




Norveçin Stavanger şəhərində "Norway Chess" beynəlxalq şahmat turnirində növbəti turun oyunları keçiriləcək.

Azərbaycan təmsilçisi Şəhriyar Məmmədyarov dördüncü turda çinli Van Hao, Teymur Rəcəbov fransalı Maksim Vaşye-Laqrav ilə mübarizə aparacaqlar.

Qeyd edək ki, ötən üç turun nəticəsinə görə, Ş.Məmmədyarov 4, Teymur Rəcəbov isə 1,5 xal toplayıb.

"Norway Chess" turniri iyunun 10-dək davam edəcək. Reqlamentə əsasən, qələbəyə görə şahmatçılara üç xal verilir. Heç-heçə olacağı təqdirdə iştirakçılar qalibi "armageddon"da müəyyənləşdirirlər.

## Azərbaycanın veteran cüdoçuları Avropa çempionatının birinci günündə 6 medal qazanıblar



Yunanıstanın Heraklion şəhərində usta cüdoçular arasında Avropa çempionatı start götürüb.

Veteran cüdoçularımız qitə çempionatının birinci yarış günündə 6 (2 qızıl, 2 gümüş və 2 bürünc medal) medalla başa vurublar. Belə ki, qızıl medalları komandamızın aktivinə 90 kiloqram çəki dərəcəsində Fərhad Rəcəbli (M7) və Mübariz Cəfərov (M5) yazdırıblar. Müşviq Cəfərov (M5, 73 kq), Qabil Qasımov (M6, +100 kq) gümüş, Natiq Qasımov (M6, 81 kq) və Şamil Sövzəliyev (M8, 81kq) bürünc medal qazanıblar.

**AZƏRTAC-ın materialları əsasında**

*Krossvord, skanvord, çaynvord, kriptoqram*




1. Pilotun qəza hallarında oturacaqla birlikdə atılması
2. Artilleriya silahı
3. Hərbi və ya başqa geyim formalarında çiyinə tikilən və ya yapışdırılan, rütbələrin yerləşdiyi geyim elementi
4. Silahı hədəfə tuşlamaq üçün mexaniki, optik, elektron-optik və s. növləri olan cihaz və ya mexanizm
5. Kamikadze dron
6. Texnikaları su maneələrindən keçirmək üçün müvəqqəti qurulan, üzən körpü
7. Çox qüvvətli partlayış yaradan dağıdıcı silah, bomba
8. İnsanın tənəffüs orqanlarını, üzünü və gözünü havada olan zəhərli maddələrdən qoruyan fərdi qorunma vasitəsi
9. Texnikaları və hərbi qulluqçuları mərmi və qəlpələrdən qorumaq üçün istifadə olunan örtük, geyim
10. Məğlub etmək üçün nəzarətə alınmış düşmən obyekti
11. Hərbi baş geyimi
12. Rəngli saplardan toxunan və metal ucluqlarla tamamlanan hərbi geyim aksessuarı
13. Kiçik və orta çaplı, yivli, uzun lüləli odlu silah
14. Patronun bütün elementlərini birləşdirən, latun və poladdan düzəldilən nazik divarlı metal "stəkan"
15. Hərbi qulluqçu
16. Bir əl ilə atəş aparmaq üçün nəzərdə tutulmuş, qısa lüləli yaxın döyüş silahı
17. Silah və sursatların saxlanılmasını, qeydiyyatını, qoşunlara verilməsini, eləcə də təmirini təmin edən hərbi müəssisə və ya anbar
18. Şalvarın yan tərəfinə tək və ya cüt şəkildə, enli və ya dar formada, parçadan tikilən zolaq
19. Qoşunların şəxsi heyətini və mülki vətəndaşları bütün zərbə vasitələrindən mühafizə etmək üçün bağlı tipli xüsusi tikili

Kapitan Mahmudov Aydın Asif oğluna məxsus MN № 0043456 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Leytenant İsmayılov Elcan Mahmud oğluna məxsus MN № 0058085 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 648
Nüsxə 4673